9 May – faşizm üzərində Qələbə günüdür
17 (1323) 2-8 may 2024-cü il
İQTİSADİYYAT
www.iqtisadiyyat.com
Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet · Qiyməti razılaşma yolu ilə · Qəzet 1999-cu ildən çıxır

## "İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRDƏ SON VAXTLAR BÖYÜK CANLANMA BAŞ VERİR"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edərkən deyib.
Dövlətimizin başçısı Azərbaycan-Çin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq, nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyib. Prezident İlham Əliyev bu baxımdan Transxəzər nəqliyyat dəhlizinin Orta Dəhlizin bir hissəsi olduğunu vurğulayıb.
Dövlətimizin başçısı sərmayə qoyuluşu nöqteyi-nəzərindən yaxşı irəliləyişin olduğunu bildirib. Belə ki, Çin şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə qoyur.
Dövlətimizin başçısı, eyni zamanda COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan-Çin məsləhətləşmələrinin aparıldığını vurğulayıb.
Yan Vanmin ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini deyib, qeyd edib ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olub və bu baxımdan o, Transxəzər dəhlizinin bu təşəbbüsün reallaşmasına, ümumilikdə Azərbaycanın bütün nəqliyyat qovşağının inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

## "ALMANİYA-AZƏRBAYCAN ƏLAQƏLƏRİ SÜRƏTLİ İNKİŞAF DÖVRÜNÜ YAŞAYIR"



"Son vaxtlar mənim Almaniyaya səfərlərim müntəzəm xarakter alıb. Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır".
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Berlində Almaniyanın Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında deyib. Keçən ilin martında Berlində, iki ay əvvəl Münxendə Kansler ilə görüşdüyünü xatırladan dövlətimizin başçısı bildirib: *"İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir".*

## "NEFT-QAZ SAHƏSİNDƏ AVROPA BAZARLARINA NƏQL EDİLƏCƏK RESURSLARIMIZ VAR"

***"Bizim neft-qaz sahəsində uzun illər ərzində xüsusilə də Avropa bazarlarına nəql ediləcək resurslarımız var".***
Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxışında söyləyib.




2022-ci ildə enerji sahəsində Avropa İttifaqı ilə tərəfdaşlıq sazişinin imzalandığını xatırladan dövlətimizin başçısı bildirib ki, bu gün bizim Avropa İttifaqına, Avropa qitəsinə qaz təchizatımız artır.

## "DEMARKASİYA İLƏ BAĞLI ƏLDƏ EDİLMİŞ İLKİN RAZILIQLAR BİZİ SEVİNDİRİR"

"Düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə imkanlar və məsuliyyət gətirir".
Bu fikirləri Almaniya Kansleri Olaf Şolts Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi brifinqdə bildirib.
Demarkasiya ilə bağlı ilkin razılıqların Almaniya tərəfini sevindirdiyini deyən Kansler bu dinamikanı saxlamağı və bu istiqamətdə cəsarətli addım atılmasını dəstəklədiyini vurğulayıb.

## "SÜLHƏ NAİL OLMAQ ÜÇÜN ÇOX YAXŞI FÜRSƏTLƏR VAR"

"Ermənistanla Azərbaycan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası, hətta demarkasiyası da başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılıb".
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Berlində Almaniyanın Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında söyləyib.
Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin bu gün səhər fəaliyyətini dayandırdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: *"Yəni, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq".*

## "TƏBİİ QAZ TƏCHİZATÇISI OLAN AZƏRBAYCAN AVROPA ÜÇÜN YAŞIL ENERJİ TƏCHİZATÇISI DA OLACAQ"

"2027-ci ilin sonuna qədər 9 günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Berlində Almaniyanın Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında deyib.
Azərbaycanın Avropaya yaşıl enerjini ixrac etmək üçün fəal çalışdığını vurğulayan dövlətimizin başçısı deyib: *"Hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaq".*

## BAKIDA VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU İŞƏ BAŞLAYIB




**Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.**
***Prezident İlham Əliyev Forumun açılış mərasimində nitq söyləyib.***

* * * *

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edir. Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər.
Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərlərinin təşkili də gözlənilir. Tədbir çərçivəsində Ağdamda və Şuşada xüsusi panel sessiyaların keçirilməsi də nəzərdə tutulur. Bu, eyni zamanda, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdən beynəlxalq ictimaiyyətə müraciət üçün bir platforma yaratmaq fürsətidir.



# "Azərbaycan COP29 sədrliyi zamanı "Qlobal Şimal" və "Qlobal Cənub"u bir araya gətirməkdə qərarlıdır"



Bunu xarici işlər naziri Ceyhun Bayramov aprelin 30-da Ərəb Dövlətləri Liqası - Mərkəzi Asiya - Azərbaycan Respublikası Əməkdaşlıq və İqtisadi Forumunun 3-cü iclasında çıxışı zamanı deyib.
O, həmçinin COP29-un öz növbəsində Mərkəzi Asiya və Ərəb ölkələri ilə alternativ enerji, iqlim yönümlü kənd təsərrüfatı və təbii fəlakət risklərinin öyrənilməsi sahələrində əməkdaşlıq üçün platforma rolunu oynayacağını da diqqətə çatdırıb.

# Qırğızıstan Azərbaycandan elektrik enerjisi idxal etməyi planlaşdırır

Bu barədə məlumatı Qırğızıstanın energetika naziri Taalaybek İbrayev bildirib.
Nazirin sözlərinə görə, Azərbaycan bir çox ölkələrə təbii qaz və elektrik enerjisi ixracı ilə tanınır.
*"Yaxın gələcəkdə Azərbaycan Qazaxıstan və Özbəkistana da elektrik enerjisi ixrac etməyi planlaşdırır. Biz elektrik enerjisinin Qırğızıstana ixrac edilməsini də müzakirə etdik. Texniki imkanlar elektrik enerjisinin bizə tranzit olaraq ötürülməsinə imkan verir"*, - deyə nazir bildirib.

# Mərkəzi Bank faiz qərarını açıqladı



Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 7.5%-dən 7.25%-ə, faiz dəhlizinin yuxarı həddinin 8.5%-dən 8.25%-ə endirilməsi, faiz dəhlizinin aşağı həddinin isə 6.25% səviyyəsində dəyişməz saxlanılması haqqında qərar qəbul etmişdir.
Bu qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə (4±2%) müqayisəsi, inflyasiya gözləntilərinin stabilləşməsi, risk balansında baş verən dəyişikliklər nəzərə alınmaqla verilmişdir. Proqnozlaşdırılan inflyasiyanın aşağıya doğru dəyişdiyini nəzərə almaqla faiz dəhlizinin yuxarı həddinin və uçot dərəcəsinin azaldılması monetar şəraitin yumşalmasına yönəldilmişdir. Aşağı həddin dəyişməz saxlanılması isə banklararası faizlərin dəyişkənliyinin azaldılmasına xidmət edir. Faiz dəhlizinin bu parametrləri müəyyənləşdirilərkən onların banklararası pul bazarındakı faizlərə təsir potensialı da nəzərə alınmışdır.
Ötən iclasdan bəri illik inflyasiya tempi azalmaqda davam etmişdir. 2024-cü ilin martında 12 aylıq inflyasiya 0.4%, 12 aylıq baza inflyasiya isə 1% təşkil etmişdir. İllik ərzaq deflyasiyası 1.1%, qeyri-ərzaq inflyasiyası 1.1%, xidmətlər inflyasiyası isə 2.2% olmuşdur.

# Azərbaycanın neft və qaz qiymətləri üzrə proqnozu açıqlanıb

"Cari ildə neftin bir barelinin orta qiymətinin 85,7 dollar olacağı proqnozlaşdırılır".
Bu sözləri Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrlərinə dair qəbul edilmiş qərarının açıqlanmasına həsr olunan mətbuat konfransında deyib. O bildirib ki, 2025-ci ildə neftin bir barelinin orta qiyməti 83,5 dollar proqnozlaşdırılır. ***"Proqnoza əsasən, bu il Azərbaycan qazının 1000 kubmetrinin orta qiyməti 281 dollar, 2025-ci ildə isə 299 dollar təşkil edəcək"***, - deyə sədr vurğulayıb.

# İtaliya portalı: Azərbaycan Avropanın qaz bazarını fəth edir

İtaliyanın "Money.it" portalı Azərbaycanın Avropanın təbii qaz bazarındakı aparıcı mövqeyinə və oynadığı rola dair yazı dərc edib.
Materialda ölkəmizin 2027-ci ilə qədər Avropaya qaz ixracını iki dəfə artırmaq kimi iddialı məqsədə doğru irəlilədiyi vurğulanır.
Qeyd olunur ki, 2023-cü ildə Avropa İttifaqı Rusiyadan qaz idxalını kəskin azaltdıqdan sonra Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmək üçün Bakıya səfər edib və "köhnə qitənin" qaz təchizatını gücləndirmək üçün 10 milyard kubmetr qaz tədarükü haqqında saziş imzalanıb. Yeni enerji sazişləri çərçivəsində isə 2022-ci ilin oktyabrında Buxarestdə Rumıniyanın "Romgaz" şirkəti və SOCAR arasında Azərbaycan qazının Bakı-Kulevi-Konstansa marşrutu üzrə nəqlinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına dair Anlaşma Memorandumu imzalanıb. Memorandum digər zəruri infrastrukturun yaradılması və müvafiq olaraq yenidən qazlaşdırma qurğularının tikintisi ilə yanaşı, SOCAR-ın Kulevi terminalında mayeləşdirilmiş təbii qazın (LNG) istehsalını və Konstansa limanına nəqlini əhatə edir. Layihə üzrə texniki-iqtisadi əsaslandırmanın cari il ərzində başa çatdırılması gözlənilir.
Yazıda bildirilir ki, qlobal enerji bazarının transformasiyası fonunda Rumıniya və Azərbaycanın dərin enerji əməkdaşlığına sadiqliyini bir daha təsdiqləyir.

# Azərbaycan və Bolqarıstan qaz tədarükü ilə bağlı məsələləri müzakirə ediblər

Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov bu ölkənin energetika naziri vəzifəsini icra edən Vladimir Malinov ilə görüşdə qaz tədarükü ilə bağlı məsələləri müzakirə edib.
Bu barədə Hüseyn Hüseynov "X" sosial şəbəkəsindəki səhifəsində məlumat verib.
***"Görüşdə Azərbaycandan təbii qazın Bolqarıstan ərazisindən nəqli və tranziti məsələləri diqqət mərkəzində olub. SOCAR-ın Bolqarıstanın qazlaşdırılmasında iştirakı, yaşıl iqtisadiyyatın inkişafı vasitəsilə əlavə həcmdə enerji resurslarının çatdırılması imkanları və Azərbaycanın yaşıl keçid strategiyası müzakirə edilib"***, - paylaşımda deyilir.

# Biznes dairələri arasında qarşılıqlı investisiyaların təşviqi müzakirə olunub



Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının təşkilatçılığı ilə Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 4-cü iclası keçirilib.
Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, tədbirdə hər iki ölkədən rəsmi şəxslər və iş adamları iştirak ediblər.
İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin, İşgüzar Şuranın həmsədrləri - KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və "Al Rajhi İnternational for İnvestment" şirkətinin baş icraçı direktoru Əhməd Əl Əl Daxilin, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun icraçı direktoru Yusif Abdullayevin iştirak etdiyi iclasda hər iki ölkənin biznes, investisiya və ixrac potensialı, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə biznes və sərmayə qoyuluşu imkanları, işgüzar dairələr arasında ticarət və investisiya sahəsində mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri, iş adamlarının iştirakı ilə birgə təşəbbüslərin və layihələrin reallaşdırılması, bu istiqamətlərdə Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının rolunun gücləndirilməsi, qarşılıqlı olaraq investisiyaların təşviqində KOB-ların rolunun artırılmasına dair fikir mübadiləsi aparılıb.

# Naxçıvanda ÜDM istehsalı 3% artıb

"Bu ilin birinci rübündə Naxçıvan Muxtar Resublikasında ÜDM istehsalı 318 milyon 794 min manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,9% çoxdur".
Bu sözləri Naxçıvanda keçirilən "Naxçıvan Muxtar Respublikasının ixrac perspektivləri" mövzusunda tədbirdə Muxtar Respublikanın iqtisadiyyat naziri vəzifəsinin icraçısı, nazir müavini Abbas İsmayılov deyib. O, bildirib ki, ötən il Naxçıvan Muxtar Resublikasında ÜDM istehsalı 1 milyard 550 milyon manatdan çox olub: "İqtisadi inkişafda, büdcə daxilolmalarında sahibkarlığın rolu olduqca böyükdür. Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində qeydiyyatda olan vergi ödəyiciləri üzrə vergi daxilolmaları ötən il 2022-ci illə müqayisədə 36,6 milyon manat və ya 29,4% artıb. 2024-cü ilin birinci rübündə DVX-nin xətti ilə büdcəyə 45,8 milyon manat vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 24,8% və ya 9,1 milyon manat çoxdur. Cari ilin birinci rübündə Naxçıvanda vergi daxilolmaları üzrə proqnoz 116,1% icra edilib".

# Dövlət Neft Fondu "Meta"nın 179 mln. dollarlıq səhmlərini alıb

2024-cü ilin I rübü üzrə Azərbaycan Dövlət Neft Fondu (ARDNF) ən çox "Microsoft"un səhmlərinə sahib olub.
Fond ötən ilin sonu ilə müqayisədə bu ilin rübündə texnologiya korporasiyasındakı səhm portfelini 12,8% artıraraq, 438 mln. dollardan 494 mln. dollara çatdırıb.



Fond "Microsoft"un əksinə, "Apple" üzrə səhm portfelini 77 mln. dollar və ya 15,5% azaldaraq 419 mln. dollara endirib. Ötən ilin sonunda bu rəqəm 496 mln. dollar təşkil edib. Bu nəticələrlə "Apple" ARNDF-nin TOP-5-liyində ikinci pilləyə enib.
ARDNF ilk rübdə "NVIDIA"nın səhmlərinə yatırımları 169 mln. dollar artırıb. Fondun "NVIDIA" üzrə səhm portfelinin dəyəri 202 mln. dollardan 371 mln. dollara yüksəlib. ARDNF həmçinin, "Amazon" üzrə səhm portfelinin həcmini 233 mln. dollardan 279 milyon dollara çatdırıb.
Ötən ilin sonu ilə müqayisədə bu ilin ilk rübdə "Alfabet" (Google) ARDNF-nin TOP-5-yinə düşə bilməyib. Ötən ilin sonunda Fond "Alfabet"in 258 mln. dollar həcmində səhminə sahib olub.
Əvəzində Fond Mark Zukerberqin "Meta platforms"ına 179 milyon dollar həcmində investisiya edib. Sözügedən İT nəhənglərinin ARDNF-nin kotirovka olunan səhm portfelindəki payı müvafiq olaraq 4,0%, 3,4%, 3,0%, 2,3% və 1,4% təşkil edib.

# Azərbaycanla Çinin ticarət dövriyyəsi 750 mln. dollara yaxınlaşıb

2024-cü ilin yanvar-mart aylarında Azərbaycanla Çin arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 19.8% və ya 123 milyon 763 min ABŞ dolları artaraq 748 milyon 785 min ABŞ dolları təşkil edib.
Bu dövrdə Çinlə ticarət dövriyyəsi Azərbaycanın I rübdə ümumi ticarət dövriyyəsinin 5.31%-ni təşkil edib. Hesabat dövründə Çindən Azərbaycana ixracın həcmi 743 milyon 728 min ABŞ dollarına, Azərbaycandan Çinə ixracın həcmi isə 5 milyon ABŞ dollarına bərabər olub. Qeyd edək ki, 2023-cü ildə Azərbaycanla Çinin ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 43.7% və ya 942.5 milyon ABŞ dolları artaraq 3 milyard 101.5 milyon ABŞ dolları təşkil edib.

# Azərbaycanın qeyri-neft ixracı açıqlandı

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın aprel sayına əsasən, 2024-cü ilin I rübü ərzində Azərbaycanın ümumi ixracı 6 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 673,7 milyon ABŞ dolları təşkil edib.
2024-cü ilin yanvar-mart ayları ərzində yeyinti məhsulları üzrə ixrac 195,3 milyon ABŞ dollarına bərabər olub.
2024-cü ilin üç ayı ərzində pambıq ixracı 47%, meyvə-tərəvəz ixracı 15,3%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 7,2%, üzvi kimyəvi birləşmələrin ixracı isə 2,1% artıb.
2024-cü ilin ilk rübü ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 17,8% artaraq 210,7 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər 7,8% artaraq 58,8 milyon ABŞ dolları olub.
2024-cü ilin yanvar-mart ayları ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (56,5 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (45 milyon ABŞ dolları) ikinci, elektrik enerjisi (40,6 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.
2024-cü ilin yanvar-mart ayları ərzində Rusiya Federasiyasına 225,5 milyon ABŞ dolları, Türkiyəyə 150,3 milyon ABŞ dolları, Gürcüstana 59,9 milyon ABŞ dolları, Ukraynaya 24,2 milyon ABŞ dolları, Qırğızıstana isə 20,8 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.
Cari ilin mart ayının qeyri-neft ixracı 218,7 milyon ABŞ dollarına olub. Yeyinti məhsulları üzrə ixrac 11,5% artımla 58,2 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 160,5 milyon ABŞ dolları təşkil edib.
"İxrac icmalı"nda göstərilib ki, 2024-cü ilin aprel ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilmiş qeyri-neft ixracının dəyəri 38,8 milyon ABŞ dolları olub.

# "Это эволюционное развитие". Лукашенко на ВНС о новом этапе в политической жизни страны






24 апреля, Минск /Корр. БЕЛТА/. Заседание Всебелорусского народного собрания в качестве конституционного органа впервые состоялось 24 апреля, сообщает БЕЛТА.
В ходе мероприятия приняты первые четыре решения - об избрании председателя ВНС, его заместителя и президиума ВНС, а также об утверждении временного регламента ВНС.

**Президент Беларуси Александр Лукашенко избран председателем VII Всебелорусского народного собрания**

По итогам голосования заместителем председателя ВНС избран помощник Президента Александр Косинец. Соответствующие итоги тайного голосования на заседании ВНС 24 апреля озвучила председатель Счетной комиссии ВНС, председатель Национального статистического комитета Инна Медведева.

**Заседание ВНС в качестве конституционного органа впервые состоялось 24 апреля**

В ходе мероприятия приняты первые четыре решения - об избрании председателя ВНС, его заместителя и президиума ВНС, а также об утверждении временного регламента ВНС. Принятые решения подписаны избранным председателем.
"В Беларуси поистине исторический день. Кто этого не понял, поймут со временем. Впервые в конституционном статусе начинает свою работу Всебелорусское народное собрание седьмого созыва. Впервые Послание Президента, с которым по нашей Конституции глава государства должен обращаться к народу и парламенту раз в год, будет озвучено в ходе всенародного форума, что станет уже ежегодной традицией", - сказал Президент.

**Славянское вече в современном облике**

"В этом зале собрались представители всех слоев общества, всех профессий и статусов: руководители, люди в погонах, труженики села, работники предприятий и сферы услуг, предприниматели, педагоги, врачи, деятели науки и искусства, спортсмены - истинные представители народа. Уверен - патриоты. Славянское вече в его современном облике", - сказал Президент.

**В Беларуси не отделяют власть от народа**

"Первый Президент, руководители всех уровней - выходцы из самых простых семей. В Беларуси есть только один путь к высоким должностям - через умение и желание честно работать на благо страны", - подчеркнул глава государства.

**Лукашенко дал наказ делегатам ВНС: надеюсь, что когда нас не станет, вы удержите страну**

Президент также упредил возможную критику со стороны оппонентов, что на ВНС собрались исключительно его сторонники: "Да, здесь собрались "лукашисты", врагов здесь нет и не будет!" Эту фразу зал встретил аплодисментами.

**Лукашенко уверен, что ВНС как конституционный орган будет обладать силой**

Отвечая на уточняющий вопрос представителей СМИ, Александр Лукашенко пояснил, что ВНС - это не надпрезидентский орган. "Это орган, который где-то там наверху в стороне, но не вмешивается в процессы, которые решает Президент, парламент, правительство. Это их дело. Да, часть полномочий, я их уже перечислял, переданы ВНС. Например, вопросы войны и мира", - сказал глава государства.
Он отметил, что в своем выступлении намеренно оставляет за скобками вопросы развития реального сектора экономики, так как все эти темы были детально разобраны на недавних совещаниях, которые широко освещались, и соответствующие поручения даны и подлежат исполнению.
"Сегодняшнее событие фактически делит историю политической жизни страны на до и после. И это эволюционное движение и развитие, - сказал глава государства. - Историчность момента определяют не только новый статус, новые функции, новые полномочия делегатов. Важно не что, а как мы делаем - как совершенствуем модель политического устройства. Не ломая уклада, не отказываясь от традиций - эволюционно, по-белорусски взвешенно, без резких движений. Опираясь на мнение большинства".

**Каким достижением национальной демократии гордится больше всего Президент**

"Кем бы мы ни являлись, находящиеся в этом зале, где бы ни работали, между нами нет дистанции. Здесь у всех нас один статус - участники Всебелорусского народного собрания. Делегаты и приглашенные. И этим достижением национальной демократии я горжусь больше всего", - сказал глава государства.

**О достижениях суверенной Беларуси: мы никогда еще так хорошо не жили, как сейчас**

"Конечно, могли бы и лучше, но у нас нет того, что есть, к примеру, в Эмиратах и России (таких запасов полезных ископаемых. - Прим. БЕЛТА). Признаем, чтобы не кидаться в революционные трансформации. Не для этого треть века назад мы отводили народ от пропасти. И отвели", - сказал Президент.

**Если не хотим сидеть в окопах, должны работать, в Год качества - сделать невозможное**

"У нас достаточно поводов для гордости. Будет еще больше. А работы у нас еще больше. Будет жесточайшая дисциплина - будет и результат! И если мы не хотим сидеть в окопах, то мы должны работать ответственно, каждый на своем месте. Честно. Напряженно. Так, как умеем", - отметил глава государства.

**Народ Беларуси знает, что значит быть сильным во имя мира**

"Беларусь - компактная страна, белорусы - очень миролюбивый народ по своей природе, обладающий запасом мощной жизненной энергии. Ресурс уникальный, который в разные периоды истории помогал выжить белорусскому народу", - сказал глава государства.

**Лукашенко просит не путать: белорусское миролюбие - не пацифизм**

"Понятно одно: нас очень хотят втянуть в войну. Как никто другой и я как главнокомандующий, и наши военные, спецслужбы это видим. Пока они нас провоцируют, роют окопы, модернизируют военную инфраструктуру, вооружение. Я уже говорил: мы по другую сторону границы строим мирную жизнь. Стены не возводим, окопы не роеМ", - сказал Президент.

**В Беларуси не было реальных социальных причин для мятежа и революционных настроений**

"Да и революционеров-то не было! Жить к тому моменту белорусы стали не богато, но значительно лучше уровня "чарки-шкварки". Сегодня почти 60% себя относят к среднему классу, - заметил глава государства. - Ну да, некоторые разбогатели и потянулись к власти. Прямо в лучших традициях украинского сценария. А за ними пошли такие же, кто за свою жизнь никогда не держал в руках чего-либо тяжелее компьютерной мыши или мобильника. Были и такие, кто не сразу разобрался, поддался эмоциям".

**О 2020 годе: в НАТО потирали руки и готовились к военной интервенции, но Беларусь выстояла**

"Если бы не стойкость и мужество истинных патриотов, потеряли бы страну. Не выстояли бы мы тогда - натовские ястребы были бы уже под Смоленском. И украинская тема стала бы нашей реальностью. Но мы оказались сильнее и сплоченнее", - сказал глава государства.

**На западных границах Беларусь лицом к лицу стоит с НАТО**

"Утвержден план развертывания трехсоттысячной военной группировки на восточном фланге блока. Они называют это "поясом сдерживания". Понять бы только, кого они собираются сдерживать", - отметил Александр Лукашенко.

**Лукашенко заявил, что это его с Путиным дело, как применять ядерное оружие**

На вопрос журналистов, прописан ли механизм применения ядерного оружия в новой Военной доктрине, Александр Лукашенко ответил отрицательно: "Механизм не прописан. Это наше дело с Путиным. Более того, не только по тактическому, но и по обычному оружию мы советуемся, как, когда и где применять. Поэтому там, где надо, оно прописано".

# Азербайджан о формате переговоров с Арменией



Азербайджан выступает за прямые двусторонние мирные переговоры с Арменией, которые зарекомендовали себя как наиболее эффективное и успешное решение, заявил министр иностранных дел Азербайджана Джейхун Байрамов.
«Азербайджан выступает за прямые двусторонние мирные переговоры, которые зарекомендовали себя как наиболее эффективное и успешное решение с точки зрения достижения взаимоприемлемых результатов. Они нацелены на достижение устойчивого мира и стабильности на Южном Кавказе, о чем свидетельствуют также недавние договоренности, достигнутые между комиссиями по делимитации двух стран», - сказал Байрамов.
Министр также подробно проинформировал участников заседания о текущей ситуации в регионе в постконфликтный период, масштабных восстановительно-строительных работах, проводимых Азербайджаном на освобожденных территориях, минной угрозе и процессе нормализации между Баку и Ереваном.

# ЦБ Азербайджана назвал цели особого режима регулирования



Об этом заявил начальник отдела финансовых технологий и инноваций Центрального банка Азербайджана (ЦБА) Сахиб Гасанов на презентации «Особого режима регулирования» банка.
По его словам, во многих странах действует особый режим регулирования.
«Особый режим регулирования представляет собой набор правил, регулирующих тестирование инновационных услуг и продуктов юридическими лицами на финансовых рынках в ограниченных рамках и под контролем Центрального банка Азербайджана», - сказал С.Гасанов.
Он подчеркнул, что основная цель состоит в создании платформы для повышения финансовой инклюзивности путем внедрения инновационных продуктов, тестирования инновационных продуктов в финансовом секторе, контроля рисков, связанных с внедрением инновационных продуктов, и совместного формирования нормативных рамок с участниками рынка.

# Баку поставил требование Парижу

Решительно отвергаем необоснованные утверждения и обвинения в адрес Азербайджана, выдвинутые министром внутренних дел Франции Жеральдом Дарманеном 29 апреля в правовом комитете Национальной ассамблеи Франции. Министр внутренних дел Франции, говоря о Новой Каледонии, обвинил Азербайджан в поддержке сепаратизма. Он забывает, что именно французская сторона в течение долгого времени предпринимала шаги в поддержку агрессивного сепаратизма в Азербайджане, регулярно принимала у себя представителей сепаратистского режима.
С таким заявлением выступил пресс-секретарь МИД Азербайджана Айхан Гаджизаде, комментируя слова главы МИД Франции.
В заявлении МИД Азербайджана говорится, что именно «по инициативе правящей партии Франции парламент этой страны, наряду с принятием решений и резолюций, ставящих под вопрос территориальную целостность и суверенитет Азербайджана и признающих сепаратистский режим, создал возможность для деятельности группы дружбы с сепаратистами. Вместо нелепой и дешевой клеветы против Азербайджана о якобы имевших место массовых убийствах армянского населения Дарманен лучше вспомнил бы о преступлениях против коренных народов, зверских убийствах миллионов невинных людей, совершенных Францией в рамках продолжающейся по настоящее время колониальной политики».
По словам Гаджизаде, «совершенно неприемлемо, чтобы французский чиновник использовал заведомо оскорбительные выражения о конституционном государственном устройстве Азербайджана, это не укладывается ни в какие этические рамки и противоречит нормам межгосударственных отношений».

# Турция приветствует позитивные шаги в отношениях между Баку и Ереваном



Турция приветствует позитивные подвижки в отношениях между Баку и Ереваном. Об этом сказал официальный представитель правящей турецкой Партии справедливости и развития Омер Челик, комментируя достижение договоренности о делимитации границы между Азербайджаном и Арменией. Его слова приводят местные СМИ.
"Мы внимательно следим за проблематикой, касающейся Азербайджана. 19 апреля делегации Азербайджана и Армении, занимающиеся вопросами границы, встретились вновь. На границе был установлен пограничный камень, пусть и символически. Мы считаем это ценным и позитивным, приветствуем послания об отказе от агрессии в отношении Азербайджана", - отметил Челик.







# "Peyvəndlərlə əlaqədar doğru bildiyimiz yanlışlar" mövzusunda seminar keçirilib

***25 aprel 2024-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə "Beynəlxalq İmmunlaşdırma Həftəsi"nə həsr edilmiş "Peyvənd həyat qurtarır" şüarı altında "Peyvəndlərlə əlaqədar doğru bildiyimiz yanlışlar" mövzusunda seminar keçirilib.***



Seminarın açılış hissəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Azərbaycan Könüllü Təşkilatları İttifaqının Baş katibi Vüqar Əliyev və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin İnsan Resursları İdarəsinin Sosial Layihələr və Motivasiya şöbəsinin inspektoru Fidan Salixova çıxış ediblər.

Rəis müavini İsmayıl Əfəndiyev Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədovun və öz adından tədbir iştirakçılarını salamlayıb, bugünkü seminarın vaksinasiyaya və peyvəndlərə dair aktual məsələlərə həsr olunduğunu bildirib. O, müxtəlif dövrlərdə insanların müxtəlif xəstəliklərə qarşı vaksinasiyasından danışaraq, qeyd edib ki, hələ ötən əsrin 60-70-ci illərində uşaqlara təbii çiçək xəstəliyinə qarşı peyvəndlər vurulurdu.

İ.Əfəndiyev insanların ölümünə səbəb olan ağır xəstəliklərdən biri olan poliomielit və qızılca xəstəliklərindən danışıb, Azərbaycanda da bu xəstəliyin əsas səbəblərindən biri kimi uşaqların vaxtında vaksinasiya edilməməsini göstərib. O, çıxışında COVİD-19 pandemiyası dövründə də vaksinasiyanın əhəmiyyətindən danışaraq, məhz peyvəndlənmədən sonra insanların bu xəstəliyə qarşı immunitetlərinin möhkəmləndiyini vurğulayıb.

Dövlət Gömrük Komitəsinin İnsan Resursları İdarəsinin Sosial Layihələr və Motivasiya şöbəsinin inspektoru Fidan Salixova çıxış edərək, deyib: *"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 1 fevral 2019-cu il tarixli Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında bütün dövlət təşkilatlarına könüllüləri cəlb etmək, onların dövlət qurumlarında, nazirliklərdə təcrübə keçməsi üçün çağırış etmiş, bununla bağlı öz tövsiyələrini vermişdir. Möhtərəm prezidentimizin tövsiyələrini rəhbər tutaraq, Dövlət Gömrük Komitəsi sistemində könüllülük hərakatının inkişafı ilə bağlı tədbirlər haqqında 6 mart 2019-cu il tarixli Sərəncam imzalanmış və qurumumuzda könüllü gömrükçülər dəstəsi yaradılmışdır".*

Azərbaycan Könüllü Təşkilatları İttifaqının Baş katibi Vüqar Əliyev bildirib ki, Azərbaycanda könüllülər hərəkatı 2019-cu ildən vüsət almışdır. Prezident cənab İlham Əliyev gənclərlə görüşündə demişdir ki, Azərbaycanda ümumiyyətlə könüllülük fəaliyyəti bizə əcdadlarımızdan gəlib çatan bir mirasdır. Azərbaycan könüllüləri Azərbaycan xalqının ətrafında birləşərək, pandemiya dövründə uğurla fəaliyyət göstərmiş, daha sonra Vətən müharibəsində yaxından iştirak etmişlər.

Elmi-Təcrübi və Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadənin moderatorluğu ilə keçirilən seminarda peyvəndlərlə qarşısı alına bilən xəstəliklər, peyvəndləmənin vacibliyi, o cümlədən peyvəndlərlə bağlı miflər barədə Mərkəzi Gömrük Hospitalının infeksionisti Mədinə Abdullayeva "Peyvəndlərlə əlaqədar doğru bildiyimiz yanlışlar" mövzusunda təqdimatla çıxış edib.

Seminarda iştirak edərək proqramı tamamlayan gənclərə sertifikatlar verilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti yeni brend kimliyini təqdim edib

***Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti olan Bakcell yeni brend kimliyini elan edib. Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller 25 aprel 2024-cü il tarixində Bakı Konqres Mərkəzində keçirilən mətbuat konfransında bu xəbərləri jurnalistlərlə bölüşüb.***

"Yeni Bakcell-in məqsədi Azərbaycanın dəyərli xalqına innovativ xidmətlər təqdim etməkdir. Yeni brend kimliyimiz zahiri görünüş, məzmun və mövqeləndirmə müstəvisində cəsarətli dəyişiklikləri əks etdirir. Bununla biz, Bakcell daxilində fəaliyyətimizin məqsədini yeni istiqamətə yönləndirəcəyik. Diqqət mərkəzimizdə sırf yeniliklər dayanacaq. Azərbaycana vacib olan və əhəmiyyət kəsb edəcək innovasiyaların gətirilməsi bundan sonra da bizim yolumuzu şimal ulduzu kimi istiqamətləndirəcək", - Klaus Müller vurğulayıb.



Belə ki, şirkətin yeni vizual həlli 5 dinamik fiqurun ulduz şəklində düzüldüyü və gələcəyə yol açan bir loqonu ərsəyə gətirir. Beləliklə, Bakcell-in şimal ulduzu bəzən insanları, bəzən məkanları, əksər hallarda isə, dəyərli anları birləşdirərək bir-birinə bağlayır. Bu innovativ dizayn Bakcell-in rəqəmsal gələcəyə sürətli sıçrayışının təcəssümüdür. Mətbuat konfransında süni intellektlə dəstəklənən insanabənzər robot təqdim edən Bakcell şirkəti, bununla Bakcell-in müştəriləri ilə qarşılıqlı əlaqəsi və işçi qüvvəsinin potensialını artırmaq üçün yeni innovativ brend kimliyində süni intellektin istifadəsini təsdiqləyib. Bakcell-in hədəfi qarşıdan gələn innovasiyalar silsiləsi vasitəsilə bütün Azərbaycan ərazisində, xüsusən də Azərbaycan üçün olduqca önəmli və dəyərli anlarla zəngin olan Qarabağda ən sürətli mobil şəbəkəni təmin edərək dəyər təkliflərini artırmaqdır.

Artıq bir sıra yeniliklərə start verilib. Növbəti günlərdə ChatBot və VoiceBot (Apple-ın Siri-yə bənzər məhsulu) kimi süni intellekt əsaslı danışıq assistentlərimiz müştərilərə təqdim ediləcək. Danışıq assistentlərimiz dərin öyrənmə sahəsində LLM və GPT kimi ən son nailiyyətlərlə təchiz edilmişdir. Bakcell telefonların satışına başlayır və cihaz ilə birlikdə, yalnız Bakcell kimi bir telekommunikasiya şirkətinin təklif edə biləcəyi və olduqca əlverişli xidmət təkliflərini müştərilərə təqdim edir. Tezliklə Bakcell innovativ və hazırda Azərbaycanda mövcud olan istənilən sürətdən daha sürətli ev internet xidmətləri təqdim edəcək.




**Azəri Light markalı neftin bir barelinin 25 aprel – 1may tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500